Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

2013



# Vətəndaş cəmiyyəti

3

# Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial inteqrasiyası proqramı davam edir

Qaradağ rayonunun Sahil qəsəbəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial inteqrasiyası proqramı həyata keçirilir. Bu proqramın məqsədi uşaqların bacarıqlarını üzə çıxararaq, özlərini gələcəkdə sərbəst idarə etməsi üçün imkanlar yaratmaqdır. Mərkəzdə psixoloji və fiziki reabilitasiya və cəmiyyətə inteqrasiya üçün sosial-psixoloji və səhiyyə xidmətləri ilə bərabər inklüziv təhsil sistemi də icra olunmaqdadır.

Proqram "Müşfiq" Əlil Uşaqlara Yardım İctimai Birliyi və "Holcim" (Azərbaycan) şirkəti tərəfindən Sahil qəsəbəsində 10 il davamlı olaraq birgə həyata keçirilir. Proqram çərçivəsində xalçaçılıq və kiçik nəşriyyat işləri daxil olmaqla uşaqlar üçün bir neçə peşə təlimləri təşkil olunur. Azərbaycanda yeganə olaraq tətbiq edilən PORTEC reabilitasiya avadanlığı vasitəsilə uşaqların əlillik dərəcəsinin azalmasına erkən müdaxilə də həyata keçirilir. Bununla yanaşı, sosial və psixoloji işlərin tərkib hissəsi olaraq 11 istiqamət üzrə terapevtik xidmətlər göstərilməkdədir. Hər ilin yekununda olduğu kimi, 2013-cü ilin sonunda da uşaqların əl işlərinin sərgisi, teatr festivalı və digər tədbirlər nəzərdə tutulur.

Dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərən "Holcim" şirkətində 80 mindən çox əməkdaş çalışır. "Holcim" dünyanın aparıcı sement, doldurucu (qırmadaş, çınqıl və qum), həmçinin hazır beton və asfalt təchizatçısıdır. 1999-cu ildən "Holcim" iqtisadi artım, ekoloji tarazlıq və sosial inkişaf məsələləri üzrə ixtisaslaşan Davamlı İnkişaf üçün Dünya Biznes İttifaqının (DİDBİ) üzvüdür. 2000-ci ildə sement sənayesində davamlı inkişafla bağlı maneələrin aradan qaldırılmasına yardım etmək məqsədilə "Holcim" "Sement sənayesi üzrə davamlılıq təşəbbüsü"nü irəli sürüb.

**Proqram "Müşfiq" Əlil Uşaqlara Yardım İctimai Birliyi və "Holcim" (Azərbaycan) şirkəti tərəfindən Sahil qəsəbəsində 10 il davamlı olaraq birgə həyata keçirilir**



Holcim

